**Zaqatala rayonunun Yeni Suvagil kəndində "Salam əleyküm" oynanılan zaman oxunan sözlər:**

Salamməlik, salamməlik,
Ay lilay, lilay, lilay,
Toli Malik, Toli co.

Məhləyə at gəlibdi, salammalik, salammalik,
Calğaya bağlanıbdı, Toli Malik, Toli co.
Ağlasa, ağlamasa, salammalik, salammalik,
Aparmağa gəlibdi, Toli Malik, Toli co.

Hərkədə can, hərkədən, salammalik, salammalik,
Kimdir səni örgədən, Toli Malik, Toli co.
Aman bacı, can bacı, salammalik, salammalik,
Nə tez çıxdın cərgədən, Toli Malik, Toli co.

Yaylığım həşdi-hüşdü, salammalik, salammalik,
Bir ucu suya düşdü, Toli Malik, Toli co.
Ağla bacılar, ağla, salammalik, salammalik,
Ayrılıq bizə düşdü, Toli Malik, Toli co.

Çaylaqda qaraçılar, salammalik, salammalik,
Yazda çiçək açılar, Toli Malik, Toli co.
Oxu bacılar, oxu, salammalik, salammalik,
Bəlkə könlüm açılar, Toli Malik, Toli co.

Qapı aşdım, qar gördüm, salammalik, salammalik,
Suya gedən yar gördüm, Toli Malik, Toli co.
Bir əlində şamama, salammalik, salammalik,
Bir əlində nar gördüm, Toli Malik, Toli co.

Bu dərənin uzunu, salammalik, salammalik,
Çoban qaytar quzunu, Toli Malik, Toli co.
Get qonşuya deginən, salammalik, salammalik,
Mənə versin qızını, Toli Malik, Toli co.

Bu ayaz sərin ayaz, salammalik, salammalik,
Buludluq sərin ayaz, Toli Malik, Toli co.
Aman allah, can allah, salammalik, salammalik,
Sevəni sevənə yaz, Toli Malik, Toli co.

Samavar paqqıllayır, salammalik, salammalik,
Qənqırlar çaqqıllayır, Toli Malik, Toli co.
Zəhləm gedir o yardan, salammalik, salammalik,
İş görmür, dıqqıllayır, Toli Malik, Toli co.

Bir ovucda kişmişsən, salammalik, salammalik,
Cibdən cibə düşmüşsən, Toli Malik, Toli co.
Sən haranın quşu idin, salammalik, salammalik,
Gedib hara düşmüsən, Toli Malik, Toli co.